# Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında

# Azərbaycan Respublikasının Qanunu

Bu Qanun lokal və regional münaqişələrin qarşısının alınması, nizamlanması və həll edilməsi ilə bağlı aparılan sülhməramlı əməliyyatlarda Azərbaycan Respublikasının iştirakının əsaslarını, formalarını və qaydasını müəyyən edir.

Bu Qanunda sülhməramlı əməliyyatlarda iştirak dünya birliyi, beynəlxalq təşkilatlar, dövlətlərin koalisiyaları, ayrı-ayrı dövlətlər, dövlət orqanları və qeyri-hökumət təşkilatları tərəfindən lokal və regional münaqişələrin qarşısının alınması, həll olunması, nizamlanması və nəticələrinin aradan qaldırılması sahəsində həyata keçirilən kompleks fəaliyyətin tərkib hissəsi kimi müəyyən edilir.

Bu Qanunun müddəaları BMT Nizamnaməsinin 51-ci maddəsinə müvafiq olaraq silahlı hücumun dəf edilməsi məqsədi ilə Azərbaycan Respublikasının ayrılmaz fərdi və ya kollektiv özünümüdafiə hüququnu, həmçinin beynəlxalq və regional təhlükəsizliyin təmin edilməsi üçün digər dövlətlərlə və beynəlxalq təşkilatlarla hərbi sahədə əməkdaşlıq hüququnu məhdudlaşdırmır.

Azərbaycan Respublikası sülhməramlı əməliyyatlarda iştirakının məqsədəuyğunluğunu, miqyasını və dərəcəsini müstəqil surətdə müəyyən edir.

## *I fəsil. Ümumi müddəalar*

### Maddə 1. Sülhməramlı əməliyyatlarda iştirak haqqında qanunvericilik

1.1. Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

1.2. Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyətlər yaranarsa, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə uyğun olaraq, beynəlxalq müqavilələr tətbiq edilir.

1.3. Azərbaycan Respublikası sülhməramlı əməliyyatlar apararkən və ya kollektiv sülhməramlı əməliyyatlarda iştirak edərkən BMT-nin Nizamnaməsinə uyğun olaraq BMT Təhlükəsizlik Şurasının və ya BMT tərəfindən səlahiyyətləri BMT Nizamnaməsinin VIII fəslinin müddəalarına uyğun hesab edilmiş beynəlxalq regional təşkilatların beynəlxalq sülhün və təhlükəsizliyin qorunması və ya bərpası, sülhə təhdidin, sülhün pozulmasının aradan qaldırılması və ya təcavüz aktının qarşısının alınması məsələlərinə dair qəbul edilmiş qərarlarını rəhbər tutur.

**Maddə 2. Sülhməramlı əməliyyatlar haqqında qanunvericiliyin tətbiqi**

Lokal və regional münaqişələrin tənzimlənməsi üzrə ərazisində sülhməramlı əməliyyatlar aparıldıqda Azərbaycan Respublikasının belə əməliyyatların iştirakçısı olub-olmamasından asılı olmayaraq, habelə Azərbaycan Respublikasının sülhməramlı kontingentinin onun ərazisindən kənarda aparılan sülhməramlı əməliyyatlarda iştirakına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmadıqda, bu Qanunun müddəaları tətbiq edilir.

**Maddə 3. Bu Qanunda istifadə edilən əsas anlayışlar**

3.0. Bu Qanunda istifadə edilən əsas anlayışların mənası aşağıdakı kimidir:

3.0.1. sülhməramlı əməliyyatlar — dövlətlərin və beynəlxalq təşkilatların, o cümlədən hərbi və mülki heyətin iştirakı ilə, BMT-nin Nizamnaməsinə, beynəlxalq regional təşkilatların qərarlarına uyğun olaraq, yaxud beynəlxalq regional təşkilatlar və ya müqavilələr çərçivəsində, yaxud ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələr əsasında lokal və regional münaqişələrin qarşısının alınması və ya onların dayandırılması və nizamlanması məqsədi ilə həmin münaqişələrə müdaxilə üzrə sistemləşdirilmiş mütəşəkkil fəaliyyətidir. Sülhməramlı əməliyyatlar sülhün qorunması, sülhün (məcburi surətdə) bərqərar edilməsi və münaqişədən sonra sülhün bərpası (sülh quruculuğu) üzrə əməliyyatları əhatə edir;

3.0.2. sülhün qorunması üzrə əməliyyatlar — BMT Nizamnaməsinin VI fəslinin müddəalarına əsasən münaqişə edən tərəflərin razılığı ilə, beynəlxalq xarakter daşımayan silahlı münaqişə baş verdikdə isə ərazisində münaqişə gedən dövlətin qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aparılan sülhməramlı əməliyyatlardır. Bu əməliyyatlar BMT-nin və ya beynəlxalq regional təşkilatların mandatına əsasən, yaxud beynəlxalq regional təşkilatlar və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində, yaxud ərazisində münaqişə gedən dövlətlə Azərbaycan Respublikasının bağladığı ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələr əsasında həyata keçirilir. Sülhün qorunması üzrə əməliyyatlar, bir qayda olaraq atəşkəs, yaxud münaqişə edən tərəflər arasında zorakılıq hərəkətlərinin dayandırılması haqqında beynəlxalq müqavilə mövcud olduqda aparılır və artıq əldə olunmuş sülhün qorunmasına və möhkəmləndirilməsinə və ya gələcək münaqişələrin qarşısının alınmasına xidmət edir;

3.0.3. sülhün bərqərar edilməsi üzrə əməliyyatlar — BMT Nizamnaməsinin VII fəslinin müddəalarına əsasən, bir qayda olaraq, məcburi hərəkət elementlərindən istifadə olunmaqla, hər hansı bir dövlətin təcavüzünün və ya beynəlxalq sülhə və təhlükəsizliyə qarşı təhdidedici hərəkətlərinin qarşısını almaq məqsədi ilə, yaxud münaqişə edən tərəflərin və ya ərazisində münaqişə gedən dövlətin müvafiq orqanlarının beynəlxalq birlik tərəfindən müdaxiləyə razılığı olmadan həyata keçirilən sülhməramlı əməliyyatlardır. Bu əməliyyatlar yalnız BMT Təhlükəsizlik Şurasının mandatı (qətnaməsi) əsasında aparılır və beynəlxalq regional təşkilatlar, dövlətlərin koalisiyaları və ya ayrı-ayrı dövlətlər BMT Təhlükəsizlik Şurasından bilavasitə səlahiyyət almadan həmin əməliyyatları müstəqil surətdə apara bilməzlər;

3.0.4. münaqişədən sonra sülhün bərpası (sülh quruculuğu) üzrə əməliyyatlar — BMT Təhlükəsizlik Şurasının və ya beynəlxalq regional təşkilatların qərarları əsasında, yaxud beynəlxalq regional təşkilatlar və ya müqavilələr çərçivəsində, yaxud ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələrə əsasən aparılan humanitar və iqtisadi yardım göstərilməsi, seçki və referendumlara hazırlıq və onların keçirilməsi, siyasi və inzibati idarəetmə strukturlarının bərpası, hərbi əməliyyatların sabiq iştirakçılarının demilitarizasiyası və onlara bəraət verilməsi də daxil olmaqla, münaqişənin baş verdiyi regionda dinc həyatın bərpası üzrə əlaqələndirilmiş kompleks tədbirlərin görülməsinə yönəlmiş sülhməramlı əməliyyatlardır;

3.0.5. Birləşmiş Millətlər Təşkilatının sülhməramlı əməliyyatları — əməliyyat aparmaq səlahiyyətlərinin BMT tərəfindən bilavasitə verilməsi şərti ilə istər BMT-nin rəhbərliyi və nəzarəti altında çoxtərəfli kontingentlər, istərsə də dövlətlərin koalisiya qüvvələri tərəfindən BMT Təhlükəsizlik Şurasının mandatı (qətnaməsi) əsasında aparılan sülhün qorunması və ya sülhün bərqərar edilməsi üzrə əməliyyatlardır;

3.0.6. beynəlxalq regional təşkilatların sülhməramlı əməliyyatları — BMT tərəfindən səlahiyyətləri BMT Nizamnaməsinin VIII fəslinin müddəalarına uyğun hesab edilmiş beynəlxalq regional təşkilatın qərarı ilə aparılan sülhün qorunması üzrə əməliyyatlardır;

3.0.7. lokal sülhməramlı əməliyyatlar — BMT və ya beynəlxalq regional təşkilatın mandatı olmadan dövlətlərin ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələri əsasında aparılan sülhün qorunması üzrə əməliyyatlardır.

## *II fəsil. Sülhməramlı əməliyyatların təşkili və aparılması*

**Maddə 4. Münaqişələrin qarşısının alınması və ya aradan qaldırılması üzrə əməliyyatlarda Azərbaycan Respublikasının iştirakı**

4.1. Ərazisində lokal, yaxud regional münaqişənin qaçılmaz olduğu və ya artıq baş verdiyi dövlətlərlə Azərbaycan Respublikası arasında bağlanmış beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmadıqda, Azərbaycan Respublikası həmin dövlətlərin daxili işlərinə birbaşa və ya dolayı yolla həyata keçirilən istənilən müdaxilədən imtina etməlidir.

4.2. Azərbaycan Respublikası bütün dövlətlərlə münasibətlərdə güc tətbiq etməkdən və ya güc tətbiq etməklə hədələməkdən imtina etməli, ərazi və yaxud digər mübahisə və münaqişələri yarandıqda isə ilk növbədə tənzimlənmənin və vasitəçiliyin mövcud olan dinc mexanizmlərini tətbiq etməlidir.

4.3. Azərbaycan Respublikasının, yaxud onun vətəndaşlarının iştirakı ilə beynəlxalq və ya beynəlxalq xarakter daşımayan münaqişə baş verdiyi təqdirdə və həmin münaqişənin dayandırılması və tənzimlənməsi üçün beynəlxalq iştirak, vasitəçilik və ya müdaxilə tələb olunduqda Azərbaycan Respublikası BMT və müvafiq beynəlxalq regional təşkilatlara bu barədə dərhal məlumat verməli və həmin təşkilatlar yardım və vasitəçilik etməyə hazır olduqları halda ilk növbədə onların yardımını və yaxud vasitəçiliyini qəbul etməlidir.

4.4. Azərbaycan Respublikası öz ərazisində sülhməramlı əməliyyatlar aparmaq üçün digər dövlətlərə və ya beynəlxalq təşkilatlara müraciət edə və onlardan yardım istəyə bilər.

**Maddə 5. Sülhməramlı əməliyyatlarda iştirakın beynəlxalq hüquqi əsasları və zəruri şərtləri**

5.1. Azərbaycan Respublikasının hərbi və mülki heyətinin sülhməramlı əməliyyatlarda iştirakı ilə əlaqədar respublika ərazisindən kənara göndərilməsi aşağıdakı hallarda həyata keçirilir:

5.1.1. BMT Təhlükəsizlik Şurasının qərarı (qətnaməsi) və BMT-nin mandatı olduqda, həmçinin BMT Təhlükəsizlik Şurasının sərəncamına verilən silahlı qüvvələrdən istifadə edildiyi hallarda BMT Təhlükəsizlik Şurası ilə xüsusi razılaşma olduqda BMT Nizamnaməsinin VI və VII fəsillərinin müddəalarına uyğun olaraq həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün;

5.1.2. beynəlxalq regional təşkilatların müvafiq qərarı olduqda, yaxud Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ya BMT tərəfindən səlahiyyətləri BMT Nizamnaməsinin VIII fəslinin müddəalarına uyğun hesab edilmiş beynəlxalq regional təşkilatlar çərçivəsində, həmçinin ərazisində münaqişə gedən dövlətin beynəlxalq müdaxiləyə və münaqişənin dayandırılmasında və tənzimlənməsində yardıma razılığı olduqda BMT Nizamnaməsinin VI fəslinin müddəalarına uyğun olaraq beynəlxalq regional təşkilatlar tərəfindən həyata keçirilən və məcburi hərəkətlərə yol verilməyən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün;

5.1.3. ərazisində münaqişə gedən dövlətlə ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələr mövcud olduqda, həmçinin sonuncunun Azərbaycan Respublikasının müdaxiləsinə və münaqişənin dayandırılmasında və tənzimlənməsində yardım etməsinə razılığı olduqda BMT Nizamnaməsinin VI fəslinin müddəalarına uyğun olaraq həyata keçirilən lokal sülhməramlı əməliyyatlarda iştirak etmək üçün.

5.2. Bu Qanunun 5.1-ci maddəsində göstərilən əsaslar mövcud olmadıqda və ya onların hüquqi tərtibatı qeyri-müəyyən olduqda sülhməramlı əməliyyatlarda iştirak etmək üçün hərbi və mülki heyətin Azərbaycan Respublikasının ərazisindən kənara göndərilməsi qadağandır.

5.3. Azərbaycan Respublikası tərəfindən sülhməramlı əməliyyatlarda iştirak etmək məqsədi ilə hərbi və mülki heyətin göndərilməsi haqqında ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilə imzalandığı təqdirdə, həmin müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qanunla müəyyən edilmiş qaydada ratifikasiya edilməlidir.

**Maddə 6. Sülhməramlı əməliyyatlarda iştirakın formaları**

6.1. Azərbaycan Respublikasının hərbi və mülki heyətinin sülhməramlı əməliyyatlarda iştirakına atəşkəs haqqında və digər düşmənçilik hərəkətlərinin dayandırılması barədə beynəlxalq müqavilələrə əməl edilməsinə nəzarət və müşahidə, qabaqlayıcı tədbirlər, münaqişə edən tərəflərin ayrılması, onların bölmələrinin tərksilah edilərək buraxılması, danışıqların təşkilində vasitəçilik və yardım, münaqişələrin nəticələrinin aradan qaldırılması, mühəndis işlərinin və digər işlərin yerinə yetirilməsi, qaçqınlar və məcburi köçkünlər probleminin həllinə yardım edilməsi, tibbi, humanitar yardımın göstərilməsi,

əhalinin təhlükəsizliyinin təmin edilməsi və insan hüquqlarına riayət olunması üzrə polis və digər funksiyaların yerinə yetirilməsi, həmçinin BMT-nin Nizamnaməsinə uyğun olaraq beynəlxalq məcburi hərəkətlərin həyata keçirilməsi daxil ola bilər.

6.2. Azərbaycan Respublikası özünün hərbi və mülki heyətini göndərmədən də ərzaq, dərman vasitələri, habelə digər humanitar yardım, rabitə və nəqliyyat vasitələri və digər maddi-texniki ehtiyatları göndərməklə sülhməramlı əməliyyatlarda iştirak edə bilər.

**Maddə 7. Sülhməramlı əməliyyatların iştirakçıları**

7.1. Azərbaycan Respublikası tərəfindən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilən hərbi heyətin tərkibinə ayrı-ayrı hərbi qulluqçular, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, hüquq mühafizə orqanlarının və fövqəladə halların nəticələrinin aradan qaldırılması üzrə orqanların, habelə digər dövlət orqanlarının hərbi və hərbiləşdirilmiş birləşmələri (müvafiq silahlara və texnikaya, yardım və təminat vasitələrinə malik olan hissə və bölmələr) daxil edilə bilər.

7.2. Azərbaycan Respublikası tərəfindən sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilən mülki heyətin tərkibinə diplomatik statusa malik olan və ya malik olmayan mülki şəxslər, o cümlədən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının ayrı-ayrı nümayəndələri, nümayəndə qrupları və ya bölmələri daxil edilə bilər.

7.3. Azərbaycan Respublikası tərəfindən sülhməramlı əməliyyatlarda iştirak üçün göndərilən hərbi və mülki heyət könüllülük əsasında komplektləşdirilir. Onlar sülhməramlı kontingentin tərkibinə göndərilməzdən əvvəl müəyyən olunmuş qaydada xüsusi hazırlıq keçməlidirlər.

7.4. Sülhməramlı əməliyyatların iştirakçılarının və onların ailə üzvlərinin sosial müdafiəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təmin edilir. Azərbaycan Respublikası sülhməramlı əməliyyatların iştirakçıları və onların ailə üzvləri üçün əlavə təminatlar, imtiyazlar və kompensasiyalar müəyyən edə bilər. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə sülhməramlı əməliyyatların iştirakçılarının sosial müdafiəsinin milli qanunvericiliyə nisbətən daha yüksək təminatı nəzərdə tutulmuşdursa, o zaman müvafiq beynəlxalq müqavilənin normaları tətbiq edilir.

**Maddə 8. Hərbi heyətin sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilməsi və geri çağırılması haqqında qərarların qəbul edilmə qaydası**

8.1. Azərbaycan Respublikasının hərbi heyətinin sülhməramlı əməliyyatlarda iştirak etmək üçün respublika ərazisindən kənara göndərilməsi barədə qərar müvafiq icra hakimiyyəti orqanının təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir və həmin qərar hərbi heyətin hər bir konkret halda respublika ərazisindən kənarda istifadə edilməsinin hüquqi əsasını təşkil edir.

8.2. Müvafiq icra hakimiyyəti orqanının sülhməramlı əməliyyatlarda iştirak etmək üçün hərbi heyətin respublika ərazisindən kənara göndərilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə ünvanlanan təqdimatına qeyd edilən hərbi heyətin fəaliyyət rayonu, onların vəzifələri, ümumi sayı, tabeliyi, xidmət müddəti və onun uzadılma qaydası, onların əvəz edilməsi və çıxarılması şərtləri, silahların növü və tərkibi, həmçinin hərbi heyət və onların ailə üzvləri üçün müəyyən olunan əlavə təminatlar, imtiyazlar və kompensasiyalar haqqında məlumatlar daxildir. Təqdimata müvafiq icra

hakimiyyəti orqanının bu Qanunun 10.4-cü maddəsində nəzərdə tutulmuş rəyi əlavə olunur.

8.3. Azərbaycan Respublikasının hərbi heyətinin hər bir konkret halda respublika ərazisindən kənarda aparılan sülhməramlı əməliyyatlarda iştirakının mümkünlüyü barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarı yalnız bu Qanunun 5.1-ci maddəsində göstərilən əsaslardan ən azı biri mövcud olduqda qəbul edilə bilər.

8.4. Azərbaycan Respublikası Milli Məclisinin qərarında respublika ərazisindən kənara göndərilən hərbi heyətin fəaliyyət rayonu, onların vəzifələri, ümumi sayı, tabeliyi, xidmət müddəti və onun uzadılma qaydası, onların əvəz edilməsi və çıxarılması şərtləri, silahların növü və tərkibi, həmçinin hərbi heyət və onların ailə üzvləri üçün müəyyən olunan əlavə təminatlar, imtiyazlar və kompensasiyalar haqqında məlumatlar göstərilir.

8.5. Beynəlxalq hərbi-siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar Azərbaycan Respublikasının hərbi heyətinin sülhməramlı əməliyyatda gələcək iştirakı məqsədəuyğun olmazsa, yaxud iştiraka əsas verən hallar aradan qalxarsa, hərbi heyətin və ya ayrı-ayrı hərbi qulluqçuların geri çağırılması haqqında qərar müvafiq icra hakimiyyəti orqanının təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən və ya Azərbaycan Respublikası Milli Məclisinin öz təşəbbüsü ilə qəbul edilir. Azərbaycan Respublikasının Milli Məclisi belə bir təşəbbüs və onun əsasları barədə müvafiq icra hakimiyyəti orqanına dərhal məlumat verməlidir.

**Maddə 9. Mülki heyətin sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilməsi və geri çağırılması haqqında qərarların qəbul edilmə qaydası**

9.1. Bu Qanunun 5.1-ci maddəsində göstərilən əsaslardan ən azı biri mövcud olduqda müvafiq icra hakimiyyəti orqanı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla mülki heyətin sülhməramlı əməliyyatda iştirak etmək üçün respublika ərazisindən kənara göndərilməsi barədə qərar qəbul edir və bir həftə ərzində bu barədə müvafiq icra hakimiyyəti orqanına və Azərbaycan Respublikasının Milli Məclisinə məlumat verir.

9.2. Müvafiq icra hakimiyyəti orqanı sülhməramlı əməliyyat çərçivəsində humanitar yardımın göstərilməsi və maddi-texniki ehtiyatların verilməsi, onların müəyyən edilmiş yerə çatdırılması üçün nəqliyyat vasitələrinin ayrılması barədə qərarlar qəbul edir.

9.3. Müvafiq icra hakimiyyəti orqanının qərarında respublika ərazisindən kənara göndərilən mülki heyətin fəaliyyət rayonu, onların vəzifələri, ümumi sayı, tabeliyi, xidmət müddəti və onun uzadılma qaydası, onların əvəz edilməsi və çıxarılması şərtləri, həmçinin mülki heyət və onların ailə üzvləri üçün müəyyən olunan əlavə təminatlar, imtiyazlar və kompensasiyalar haqqında məlumatlar göstərilir.

9.4. Beynəlxalq hərbi-siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar Azərbaycan Respublikasının mülki heyətinin sülhməramlı əməliyyatlarda gələcək iştirakı məqsədəuyğun olmazsa, yaxud iştiraka əsas verən hallar aradan qalxarsa, müvafiq icra hakimiyyəti orqanı qeyd edilən mülki heyətin geri çağırılması barədə qərar qəbul edir. Qəbul edilmiş qərar barədə müvafiq icra hakimiyyəti orqanına və Azərbaycan Respublikasının Milli Məclisinə bir həftə ərzində məlumat verilməlidir.

9.5. Mülki heyətin təcili surətdə geri çağırılması barədə qərar Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən hərbi heyətin geri çağırılması barədə qərarla eyni vaxtda qəbul edilə bilər.

**Maddə 10.Sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilən hərbi və mülki heyətin hazırlıq və təminatının təşkili**

10.1. Sülhməramlı əməliyyatlarda iştirak üçün göndərilən hərbi və mülki heyətin formalaşdırılması və xüsusi hazırlığın keçməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

10.2. Sülhməramlı əməliyyatlarda iştirak üçün hərbi və ya mülki heyəti təqdim edən müvafiq dövlət orqanları həmin heyətin formalaşdırılmasını, xüsusi hazırlıq keçməsini, tibbi müayinəsini, attestasiyasını, həmçinin qeyd edilən heyətə və onların ailə üzvlərinə müəyyən olunan təminatların, imtiyazların və kompensasiyaların verilməsini təşkil və təmin edir.

10.3. Sülhməramlı əməliyyatlarda iştirakla bağlı Azərbaycan Respublikasının üzərinə düşən maliyyə öhdəlikləri dövlət büdcəsi, eləcə də qanunvericiliklə müəyyən edilmiş digər mənbələr hesabına yerinə yetirilir.

10.4. Müvafiq icra hakimiyyəti orqanı sülhməramlı əməliyyatlarda iştirak üçün hərbi və (və ya) mülki heyətin təqdim olunması ilə bağlı, maliyyə mənbələri göstərilməklə zəruri xərclər və lazım olduqda bu məqsədlər üçün əlavə vəsaitlərin ayrılması barədə rəyini müvafiq icra hakimiyyəti orqanına təqdim edir, həmçinin Azərbaycan Respublikasının hərbi və mülki heyətinin sülhməramlı əməliyyatlarda iştirakı ilə bağlı xərclərin BMT, beynəlxalq regional təşkilatlar və ayrı-ayrı dövlətlər tərəfindən ödənilməsi, sülhməramlı əməliyyatların iştirakçılarının və onların ailə üzvlərinin təminatları, imtiyazları və kompensasiyaları ilə bağlı məsələləri həll edir.

10.5. Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının hərbi və mülki heyətinin sülhməramlı əməliyyatlarda iştirakına dair Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzə təqdim edir. Məruzədə Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakının məqsədləri, əsasları, miqyası və formaları göstərilir, əməliyyatların faktiki gedişatı və əldə olunmuş nəticələr təhlil edilir, əməliyyatlarda iştirakın maliyyələşdirilməsinin mənbələri, həcmi və real bölüşdürülməsi, itkilər barədə məlumat verilir.

**Maddə 11.Sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərilən hərbi və mülki heyətin statusu**

11.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər şərtlər nəzərdə tutulmadığı hallarda, Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirak etmək üçün göndərdiyi hərbi və mülki heyətin hüquqi vəziyyəti bu Qanunla, əməliyyat aparmaq hüququ verən mandatla, göndərən və qəbul edən dövlətlərin əməliyyat iştirakçılarının statusuna (o cümlədən, yurisdiksiya və hüquqi yardım məsələlərinə) dair imzaladıqları beynəlxalq müqavilə ilə müəyyən edilir.

11.2. Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirak edən hərbi və mülki heyəti ərazisində əməliyyat aparılan dövlətin suverenliyinə və qanunvericiliyinə hörmət etməyə, sülhməramlı əməliyyatın mandatı çərçivəsində nəzərdə tutulan hərəkətlər istisna olmaqla, əməliyyatın məqsədlərinə uyğun olmayan istənilən hərəkətlərdən çəkinməyə, ərazisində olduğu dövlətin daxili işlərinə qarışmamağa, onun ərazisində siyasi fəaliyyətlə məşğul olmamağa və münaqişələrdə iştirak etməməyə, həmçinin əhali arasında itkilərin baş verməsinin və ekoloji və sənaye infrastrukturuna, tarixi və mədəni

əhəmiyyətli obyektlərə ziyan dəyməsinin qarşısını almaq üçün bütün zəruri ehtiyat tədbirləri görməyə borcludur.

11.3. Sülhməramlı əməliyyatlarda iştirak etmək üçün Azərbaycan Respublikası tərəfindən göndərilən hərbi heyət, həmçinin onun tərkibinə bilavasitə daxil olan mülki heyət sülhməramlı əməliyyatların iştirakçı dövlətlərinin nümayəndələrindən təşkil olunmuş komandanlığa, yaxud BMT-nin, beynəlxalq regional təşkilatın qərarı ilə və ya dövlətlərarası beynəlxalq müqavilə əsasında sülhməramlı əməliyyatlara rəhbərlik etmək məqsədi ilə yaradılmış digər komanda orqanına tabedir. Heyət ərazisində sülhməramlı əməliyyatların keçirildiyi dövlətin (dövlətlərin) sərhədini keçdiyi andan həmin komandanlığın tabeliyinə keçir.

11.4. Sülhməramlı əməliyyatlarda iştirak etmək üçün Azərbaycan Respublikası tərəfindən göndərilən mülki heyət hərbi heyətin tərkibinə bilavasitə daxil deyilsə, BMT-nin, beynəlxalq təşkilatın qərarı ilə və ya dövlətlərarası beynəlxalq müqavilə əsasında yaradılan (təyin edilən) ali mülki orqana (yaxud münaqişənin nizamlanması üzrə ali siyasi nümayəndəyə) tabedir. Bu müddəa Azərbaycan Respublikasının istər milli, istərsə də beynəlxalq qeyri — hökumət təşkilatlarının əməkdaşları və ya nümayəndələri qismində sülhməramlı əməliyyatlar zonasında fəaliyyət göstərən vətəndaşlarına şamil edilmir.

11.5. Heyətin tərkibinə daxil olan hərbi qulluqçular hərbi geyim formasında olur və aidiyyəti üzrə müvafiq fərqləndirmə nişanlarına malik olurlar. Zəruri hallarda sülhməramlı əməliyyat komandanlığının qərarı ilə hərbi heyət üçün xüsusi fərqləndirmə nişanları müəyyən edilə bilər.

11.6. Nəqliyyat vasitələri, silahlar və hərbi texnika aidiyyəti üzrə müvafiq tanınma nişanlarına malik olmalıdır. Zəruri hallarda sülhməramlı əməliyyat komandanlığının qərarı ilə sülhməramlı hərbi heyətin nəqliyyat vasitələri, silahları və hərbi texnikası üçün xüsusi tanınma nişanları müəyyən edilə bilər.

11.7. Hərbi heyətin komandanlığı tərəfindən qadağan olunmuş zonaların, yaxud təhlükəsizlik zonalarının müəyyən edilməsi sülhməramlı əməliyyat komandanlığı ilə razılaşdırılmaqla həyata keçirilir.

**Maddə 12. Sülhməramlı əməliyyatlarda iştirak edən hərbi və mülki heyətin funksiyaları**

12.1. Sülhməramlı əməliyyatlarda iştirak edən hərbi və mülki heyət, bir qayda olaraq, aşağıdakı məqsədlər üçün istifadə olunur:

12.1.1. düşmənçilik edən tərəflərin ayrılması;

12.1.2. vəziyyətin sabitləşdirilməsi və qabaqlayıcı tədbirlər də daxil olmaqla münaqişə regionunda təhlükəsizlik şəraitinin yaradılması;

12.1.3. münaqişə regionunda yerləşən strateji əhəmiyyətli obyekt və tikililərin, o cümlədən təhlükəli gücə malik olan qurğu və tikililərin, həmçinin sənaye infrastrukturu obyektlərinin və nəqliyyat yollarının müdafiəsi və mühafizəsi;

12.1.4. siyasi nizamlamaya, həmçinin əsirlərin dəyişdirilməsinə, qaçqınların və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılmasına, onların problemlərinin həllinə yardım göstərilməsinə dair beynəlxalq müqavilə və

razılaşmaların işlənib hazırlanmasında münaqişə edən tərəflərə yardım göstərilməsi və vasitəçilik edilməsi;

12.1.5. münaqişə edən tərəflərin üzərlərinə götürdükləri atəşkəs haqqında beynəlxalq müqaviləyə riayət edilməsi, qeyd edilən rayonda silahlı qüvvələrin sayının və iştirakının məhdudlaşdırılması, onların qoşunlarının və hərbi birləşmələrinin (hərbi hissə və bölmələrinin) qeyd edilən rayonlardan çıxarılması və buraxılması kimi öhdəliklərin yerinə yetirilməsinin nəzarəti və yoxlanılması;

12.1.6. müəyyən rayona, o cümlədən ayrılma zonasına nəzarət edilməsi;

12.1.7. müşahidə postunun və nəzarət-buraxılış məntəqələrinin yaradılması, piyada, avtomobil və havadan keşik çəkmənin (patrulluğun) həyata keçirilməsi;

12.1.8. münaqişə rayonunda vəziyyətin monitorinqi və əhalinin təhlükəsizliyinin təmin olunması və insan haqlarına riayət olunması üzrə funksiyaların yerinə yetirilməsi, münaqişə edən tərəflərlə qarşılıqlı fəaliyyət göstərilməsi və əlaqə saxlanılması, münaqişənin nizamlanmasında vasitəçilik və ya müşahidəçilik funksiyalarını yerinə yetirən beynəlxalq təşkilatların nümayəndələrinin mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi;

12.1.9. münaqişə regionunda inzibati (idarəetmə, məhkəmə-hüquq və s.) funksiyaların birbaşa yerinə yetirildiyi ayrı-ayrı hallarda, həmçinin seçkilərə, referendumlara hazırlıq və onların keçirilməsi, sülhün bərpası ilə bağlı münaqişədən sonrakı digər məsələlərin həlli zamanı;

12.1.10. sülhməramlı əməliyyatı aparmaq hüququ verən mandatda şərtləşdirilmiş digər funksiyaların həyata keçirilməsi.

12.2. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq və sülhməramlı əməliyyat komandanlığının əmr və göstərişləri nəzərə alınmaqla hərbi heyət özünümüdafiənin, mühafizə və təhlükəsizliyin təmin olunması ilə bağlı tədbirlər görmək hüququna malikdir.

12.3. Azərbaycan Respublikasının hərbi və mülki heyəti sülhün bərqərar edilməsi üzrə əməliyyatlarda iştirak edəcəyi təqdirdə (məcburi hərəkət elementlərindən istifadə etməklə) BMT Təhlükəsizlik Şurasının qərarı ilə əməliyyatın mandatına və sülhməramlı əməliyyat komandanlığının əmrlərinə uyğun olaraq hərbi heyətin funksiyalarına (bu Qanunun 12.1-ci maddəsində qeyd edilənlərə əlavə olaraq) döyüş əməliyyatlarının aparılması və silah (güc) tətbiq edilməsi də daxil edilə bilər.

12.4. Hərbi heyət dislokasiya olunduğu ərazilərin hüdudlarında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı əməliyyat və döyüş hazırlığı üzrə təlimlər (tədbirlər) keçirə bilər. Bu zaman təlim keçiriləcək ərazilər, təlimlərin keçirilmə qaydası və müddəti, təlimlərdə iştirak edən hərbi heyətin sayı, onların hərəkət marşrutları, döyüş atəşi mərhələləri, təhlükəsizlik zonaları, ekoloji və digər məsələlər sülhməramlı əməliyyat komandanlığının orqanları ilə razılaşdırılır.

**Maddə 13. Sülhməramlı əməliyyatlarda silah (güc) tətbiq edilməsinin tənzimlənməsi**

13.1. Hərbi heyətin tərkibinə daxil olan şəxslər hərbi heyət komandanlığının əmrlərinə uyğun olaraq silah gəzdirmək hüququna malikdirlər. Hərbi heyətin yerləşdiyi ərazidən

kənarda isə onların silah gəzdirmələrinə, yalnız sülhməramlı əməliyyatın qarşıya qoyulmuş vəzifələrini yerinə yetirərkən icazə verilir.

13.2. Sülhməramlı kontingentin şəxsi heyəti sülhməramlı əməliyyat mandatı ilə nəzərdə tutulan vəzifələri yerinə yetirərkən aşağıdakı hallarda silahdan istifadə etmək hüququna malikdir:

13.2.1. şəxsi təhlükəsizliyinə qarşı yönələ biləcək istənilən qəsddən qorunmaq məqsədi ilə özünümüdafiə hüququnu həyata keçirərkən;

13.2.2. sülhməramlı kontingentin şəxsi heyətini ona həvalə olunmuş funksiyaları yerinə yetirməkdən zorla kənarlaşdırmağa, yaxud onu tərksilah etməyə cəhd göstərildikdə;

13.2.3. qanunsuz, o cümlədən terrorçu, silahlı qrup və birləşmələrin silahlı hücumlarının dəf edilməsi, həmçinin onların üzvlərinin saxlanılması və tərksilah edilməsi zamanı;

13.2.4. münaqişə edən tərəflərin silahlı mübarizə mərhələsində olan birləşmələri və ayrı-ayrı silahlı nümayəndələri arasında bufer zonalarının və təhlükəsizlik zonalarının yaradılması və saxlanması məsələlərinin həll edilməsi üçün;

13.2.5. sülhməramlı kontingentin cavabdehlik daşıdığı zonada mülki əhalinin həyat və sağlamlığına qarşı yönəlmiş zorakılıq hərəkətlərinin qarşısını alarkən.

13.3. Hərbi heyət sülhməramlı əməliyyatın yerinə yetirilməsi zamanı, onlara qarşı silahlı müqavimətin göstərilməsi, yaxud hücumların edilməsi halları istisna olmaqla, silah tətbiq edərkən ilkin xəbərdarlıq qaydalarına ciddi surətdə riayət etməli və qocaların, qadınların, uşaqların, həmçinin digər mülki şəxslərin təhlükəsizliyinin təmin olunması üçün mümkün olan bütün tədbirləri görməlidir.

13.4. Azərbaycan Respublikasının hərbi və mülki heyəti sülhün bərqərar edilməsi üzrə əməliyyatda iştirak edəcəyi təqdirdə (məcburi hərəkət elementlərindən istifadə etməklə), BMT Təhlükəsizlik Şurasının qərarı ilə hərbi heyət əməliyyatın mandatına və sülhməramlı əməliyyatın beynəlxalq komandanlığının əmrlərinə müvafiq olaraq silah (güc) tətbiq etmək hüququna malikdir.

**Maddə 14.Sülhməramlı əməliyyatlar zamanı beynəlxalq humanitar hüquq normalarına riayət olunması**

14.1. Sülhməramlı əməliyyatlarda iştirak edən hərbi və mülki heyət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş beynəlxalq humanitar hüquq normalarına riayət etməli, insan hüquq və azadlıqlarının təmin edilməsi üzrə norma və standartlara ciddi surətdə əməl etməlidir.

14.2. Sülhməramlı əməliyyat və hərbi heyət komandanlığı bütün hərbi və mülki heyətin beynəlxalq humanitar hüququn əsas prinsip və normaları, həmçinin insan hüquqlarına riayət olunmasının norma və standartları ilə, eləcə də qaçqın və məcburi köçkün şəxslərlə bağlı hüquqi qaydalarla vaxtında tanış olmasını təmin etməlidir.

14.3. Müvafiq icra hakimiyyəti orqanı əməliyyat mandatının, münaqişə regionunda mülki əhali ilə qarşılıqlı fəaliyyət və silah (güc) tətbiqi qaydalarının əks olunduğu yazılı yaddaş-

təlimat kitabçasının tərtib edilməsini və hərbi heyətin hər bir hərbi qulluqçusuna çatdırılmasını təmin etməlidir. Ayrı-ayrı hallarda heyət əlavə olaraq region əhalisinin mədəni, dini dəyərləri və ənənələri, həmçinin gender və müxtəlif yaşlı insanlar arasında münasibətlərin xüsusiyyətləri ilə tanış edilir.

14.4. Sülhməramlı əməliyyat komandanlığına hüquqi yardım göstərilməsi və sülhməramlı əməliyyatlar zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasının qarşısının alınması məqsədi ilə heyətin təlimatlandırılması üçün heyətin tərkibinə hüquq məsləhətçisi (məsləhətçiləri) daxil edilir.

## *III fəsil. Sülhməramlı əməliyyatın ayrı-ayrı növlərinin xüsusiyyətləri*

### Maddə 15. Azərbaycan Respublikası tərəfindən göndərilən hərbi və mülki heyətin BMT-nin sülhməramlı əməliyyatlarında iştirakının xüsusiyyətləri

15.1. Müvafiq icra hakimiyyəti orqanının təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi BMT Nizamnaməsinin 42-ci maddəsinə uyğun olaraq BMT Təhlükəsizlik Şurası tərəfindən həyata keçirilən tədbirlərdə iştirak və istifadə edilməsi, həmçinin BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq fərdi və ya kollektiv özünümüdafiə hüququna əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi üçün hərbi heyətin göndərilməsi barədə qərar qəbul edir.

15.2. BMT Nizamnaməsinin 42-ci maddəsinə uyğun olaraq beynəlxalq sülh və təhlükəsizliyin qorunması və ya bərqərar edilməsi üzrə məcburi tədbirlərin tətbiqi və hərbi gücün istifadəsi ilə bağlı fəaliyyətlər üçün formalaşdırılan BMT qoşunlarında Azərbaycan Respublikasının hərbi heyətinin iştirakına dair BMT Təhlükəsizlik Şurası ilə BMT Nizamnaməsinin 43-cü maddəsinə əsasən xüsusi razılaşma imzalanır. Xüsusi razılaşmada qoşunların say və növü, onların yerləşdirilməsi və hazırlıq dərəcəsi, habelə müəyyən edilmiş ərazidən keçmə hüququ da daxil olmaqla təqdim olunacaq təminatın və yardımın xarakteri, həmçinin bu cür qoşunların BMT Təhlükəsizlik Şurasının sərəncamına verilməsi qaydaları müəyyən edilir. Xüsusi razılaşma Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qanunla müəyyən edilmiş qaydada ratifikasiya edilməlidir.

15.3. BMT Azərbaycan Respublikasına müraciət etdikdə və ya müvafiq icra hakimiyyəti orqanı hərbi heyətin və müvafiq icra hakimiyyəti orqanının təqdimatı ilə mülki heyətin BMT Nizamnaməsinin VI fəslinin müddəalarına uyğun olaraq məcburi tədbirlər tətbiq edilmədən sülhməramlı əməliyyatların aparılması üçün BMT tərəfindən yaradılan sülhməramlı kontingentin tərkibinə daxil edilməsini məqsədəuyğun hesab edərsə, bu Qanunun 5.1-ci maddəsində göstərilən əsaslardan ən azı biri mövcud olduqda Azərbaycan Respublikasının Milli Məclisi müvafiq icra hakimiyyəti orqanının təqdimatı ilə hərbi heyətin göndərilməsi haqqında, müvafiq icra hakimiyyəti orqanı isə mülki heyətin bu cür əməliyyatlarda iştirak etmək üçün göndərilməsi barədə qərar qəbul edir.

### Maddə 16.Azərbaycan Respublikası tərəfindən göndərilən hərbi və mülki heyətin beynəlxalq regional təşkilatların sülhməramlı əməliyyatlarında iştirakının xüsusiyyətləri

16.1. Beynəlxalq regional təşkilatların qərarı ilə, yaxud regional beynəlxalq müqavilələr çərçivəsində Azərbaycan Respublikası kollektiv təhlükəsizlik qüvvə və vasitələrinin (kollektiv sülhməramlı qüvvələrin, çevik qüvvələrin) və ya hərbi və mülki heyətin

beynəlxalq regional təşkilatların sülhməramlı əməliyyatlarında iştirakına dair ehtiyat beynəlxalq müqavilələr sisteminin yaradılmasında iştirak edə bilər.

16.2. Beynəlxalq regional təşkilatların (müqavilələrin) iştirakçıları olan dövlətlərin xahişinə əsasən və onlarla razılaşdırılmaqla Azərbaycan Respublikası bu Qanunla müəyyən olunmuş qaydada beynəlxalq regional təşkilatların qərarı ilə, yaxud regional beynəlxalq müqavilələr çərçivəsində öz hərbi və mülki heyətini sülhməramlı əməliyyatlarda iştirak etmək məqsədi ilə həmin dövlətlərin ərazisinə göndərə bilər.

16.3. Hərbi və mülki heyətin bilavasitə istifadəsi, vəzifələri, tərkibi, sayı, onların dislokasiya yerləri, göndərildikləri ölkənin ərazisində qalma müddəti barədə qərar beynəlxalq regional təşkilatların ali orqanı tərəfindən qəbul edilir.

16.4. Kollektiv təhlükəsizlik qüvvə və vasitələri (kollektiv sülhməramlı qüvvələr, çevik qüvvələr) tərəfindən sülhməramlı əməliyyatlar yerinə yetirildiyi təqdirdə Azərbaycan Respublikasının hərbi və mülki heyətinin onların tərkibində fəaliyyəti bu Qanunla, əməliyyat aparmaq hüququ verən mandatla və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müvafiq beynəlxalq müqavilələrlə tənzimlənir.

**Maddə 17.Azərbaycan Respublikası tərəfindən göndərilən hərbi və mülki heyətin lokal sülhməramlı əməliyyatlarda iştirakının xüsusiyyətləri**

17.1. Ərazisində münaqişə gedən dövlətin münaqişənin dayandırılmasında və tənzimlənməsində Azərbaycan Respublikasının yardım etməsinə və müdaxiləsinə razılığı olduqda, Azərbaycan Respublikasının həmin dövlətlə bağladığı ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələrə əsasən həyata keçirilən sülhün qorunması əməliyyatlarında iştirak etmək üçün Azərbaycan Respublikasının hərbi və mülki heyəti göndərilə bilər.

17.2. Azərbaycan Respublikası ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqaviləyə əsasən digər dövlətin ərazisində olan hərbi və mülki heyətindən həmin müqavilədə üzərinə götürdüyü öhdəlikləri pozmaqla istifadə edilməsinə, həmçinin öz heyətinin müqavilədə nəzərdə tutulmuş funksiyalarından kənar hərəkət etməsinə və digər dövlətin ərazisində müqavilədə nəzərdə tutulduğundan artıq müddətdə qalmasına yol verməməlidir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 11 may 2010-cu il***

***№ 1000-IIIQ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 iyul 2010-cu il, № 153) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 iyul 2010-cu il, № 7 (157), maddə 573) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*